Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*

www.azjess.com

Volume 4, Number 1/İl 4, Say, 2017

# AQRAR-SƏNAYE KOMPLEKSİ SAHƏLƏRİNDƏ İSTEHLAK KOOPERATİVLƏRİ, REGİONAL VƏ MƏRKƏZİ KOOPERATİV BİRLİKLƏRININ FUNKSİYALARI VƏ FƏALİYYƏT PRİNSİPLƏRİ

**Əlisa Təvəkkül oğlu Zeynallı, i.f.d[1].,**

**T. K. Qorçiyeva[2]**

## XÜLASƏ

Məqalədə aqrar-sənaye kompleksi sahələri üzrə istehlak kooperativlərinin funksiyaları və vəzifələri müəyyənləşdirilir, kooperasiya sisteminin formalaşması və fəaliyyət mexanizmi təsvir edilir.

**Açar sözlər**: kooperasiya, kooperasiya sistemi, inteqrasiya, istehsal kooperativi, istehlak kooperativi, kooperativin üzvü, assosiasiya olunmuş üzv.

**Məqalənin yeniliyi**: Məqalədə kooperasiyanın mahiyyəti və əhəmiyyəti izah edilir, onunla əlaqəli məsələlərin həllinə XVIII əsrdən Avropa məkanında formalaşan kooperativləşdirmə təşəbbüsləri və XX əsrdə ASK-si formasında həyata vəsiqə almış idarəetmə sisteminin təcrübəsini sintez etmək yolu ilə ölkədə kooperasiya sisteminin formalaşdırılması üçün konkret təkliflər irəli sürülür, ictimai əmək bölgüsü və inteqrasiya münasibətləri əsasında bu sistemin subyektlərinin funksiyaları və fəaliyyət prinsipləri müəyyənləşdirilir. Məsələlərin həllinə yanaşmaların həm nəzəri-metodoloji və həm də praktik (təcrübi) əhəmiyyəti vardır.

## 1. Aqrar-sənaye kompleksi sahələri üzrə istehlak kooperativlərinin funksiyaları və vəzifələri

Aqrar-sənaye kompleksi sahələri üzrə istehlak kooperativi kənd təsərrüfatı istehsalı kooperativlərinə və kooperativləşməmiş kənd təsərrüfatı istehsalçılarına, digər fəaliyyət sahələrinin hüquqi və fiziki şəxslərinə, onların fəaliyyət sahələrinin mütəşəkkil təşkili və səmərəli idarə edilməsi məqsədi ilə, müxtəlif xarakterli peşəkar xidmətlərin vaxtında və keyfiyyətlə göstərilməsi funksiyasını yerinə yetirir. Bu qəbildən olan kooperativlər ona

[1] *AzETKTİvəTİ-nin Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı şöbəsinin müdiri,* **əlaqə vasitələri:** zeynal1950@mail.ru, **mobil tel**. 051 593 30 25

[2] *AzETKTİvəTİ-nin aparıcı elmi işçisi*

görə istehlak xarakterli hesab edilirlər ki, onların göstərdikləri xidmətlər kənd təsərrüfatı məhsullarının istehlakının təmin edilməsi və kənd təsərrüfatının özünün istehlakı üçün istifadə edilən istehsal vasitələrinin (keyfiyyətli toxum, mal-qara və quş yemləri, bitki və heyvanların mühafizə vasitələri, mineral gübrələr, kənd təsərrüfatı texnikası və onların ehtiyat hissələrinin, cavan mal-qara və quşların) əldə edilməsi üçün göstərilən xidmətləri özündə ifadə edir. Bu qəbildən olan kooperativ sahibkarlığın bir formasıdır. Hər bir inzibati rayonda, tələbatdan asılı olaraq, bir və ya iki belə kooperativin yaradılması, zərurət yarandığı hallarda, müxtəlif coğrafi ərazilər üzrə onların filial və nümayəndəliklərinin açılması məqsədəuyğun sayıla bilər.

Aqrar-sənaye kompleksi üzrə istehlak kooperativi özünün fəaliyyətini ixtisaslaşma prinsipi üzrə təşkil və idarə edir. Onun əsas nailiyyəti kənd təsərrüfatı istehsal kooperativlərinin istehsal etdikləri məhsulların kooperativləşdirmədən əvvəlki (kənd təsərrüfatı istehsalçılarının) satış və istehsal vasitələrinin alınması funksiyalarını ləğv edərək, bu vəzifələri öz əlinə alması, kənd təsərrüfatı məhsullarının istehsalı, bölgüsü və istehlak münasibətləri üzrə əməyin elmi təşkili, məhsuldarlığın yüksəldilməsi, səmərəli fəaliyyət nəticələrinə nail olmaq və s. ilə səciyyələndirilir.

ASK üzrə istehlak kooperativinin səmərəli fəaliyyəti üçün əməyin təşkilinin qanunauyğunluğunu təmin etməkdən ötrü təşkilati-idarəetmə tərkibi (strukturu) yaradılır və onun üç mühüm istiqaməti müəyyənləşdirilir: ticarət, anbar təsərrüfatları, nəqliyyat-daşıma xidmətlərinin göstərilməsi; ilkin və təkrar emal xidmətləri; sair xüsusiyyətli peşəkar xidmətlərin göstərilməsi (4, 138-139). Belə xidmətlərin nümunəvi təsnifatı yuxarıda verilmiş II sxemdən görünür.

İstehlak kooperativlərin yaradılması Azərbaycan cəmiyyətində sənayeləşmədən sonrakı inkişaf mərhələsinə keçidə yaxınlaşmaq, xidmətlərin xüsusi çəkisinin artırılması, infrastruktur sahələrin genişləndirilməsi, istehsal sahələrinin davamlı və dinamik inkişafı üçün əlverişli şərait yaradılması, qeyri-neft sahələrinin və o cümlədən xidmət sahələrinin sürətli inkişafına və s. təkan vermiş olur.

Dar ixtisaslaşma prinsipinə üstünlük vermək şərti ilə, ASK üzrə istehlak kooperativlərinin üzvlərin (hüquqi və fiziki şəxslərin) fəaliyyət dairəsi aşağıdakı kimi ixtisaslaşdırılır:

- *tədarük və satış funksiyalarını yerinə yetirirlər.* Bu kateqoriyadan olan hüquqi və fiziki şəxslərin vəzifəsi, kontrakt (müqavilə) əsasında kənd təsərrüfatı istehsalcılarından, ilk növbədə, kənd təsərrüfatı istehsal kooperativlərindən istehsal etdikləri bütün növ kənd təsərrüfatı məhsullarını tədarük etməkdən ibarətdir. Onlar ev təsərrüfatlarının istehsal etdikləri izafi məhsulların tədarükünə xüsusi diqqət yönəldirlər. Tədarük edilmiş kənd təsarrüfatı məhsullarının emal müəssisələrinə, topdansatış ticarət təşkilatlarına satışı funksiyalarını yerinə yetirirlər. Onlar pərakəndə ticarətlə məşğul olmurlar. Topdansatış ticarət təşkilatların funksiyalarını yerinə yetirirlər.

Kənd təsərrüfatı istehsalçılarından məhsullar iki amil: istehsal xərcləri və orta mənfəət norması əsasında müəyyənləşdirilən alış qiymətləri ilə tədarük edilir. Alınmış məhsullar faktiki xərclər və orta mənfəət normasına əsasən müəyyən edilmiş və tərəflər arasında razılaşdırılmış qiymətlər üzrə satılır. Tədarük və satış qurumları sərəncamında olan məhsulların saxlanması və daşınması məsuliyyətini özləri daşıyırlar. Kənd təsərrüfatı məhsullarının istehsalının dövlət tənzimləməsini məhz bu tədarük-satış məntəqələri vasitəsi ilə həyata keçirmək olar;

II. ASK sahələri üzrə istehlak kooperativlərinin nümunəvi sxemi



- *anbar təsərrüfatı xidmətlərini göstərən* qurumun funksiyası tədarük edilmiş kənd təsərrüfatı məhsullarının, habelə emal edilmiş məhsulların, kooperasiya sisteminə daxil olan hüquqi və fiziki şəxslərin öz funksiyalarını yerinə yetirmək (istehsal və xidmətlər göstərmək) üçün tələb olunan istehsal vasitələrinin etibarlı saxlanmasını təmin etmək kimi öhdəliklərlə xarakterizə edilir. Hal-hazırda anbar təsərrüfatlarının xidmətləri kortəbii təşkil olunmuşdur və səmərəli fəaliyyət göstərmir. Nəticədə xeyli məhsul itkisinə yol verilir.

Kooperativləşdirmə nəticəsində məhsulların etibarlı saxlanması, zay və tullantıların azaldılması anbar təsərrüfatının əsas funksiyası olacaqdır. Dünya ölkələrində geniş yayılan və ən müasir texnologiyalara cavab verən anbar təsərrüfatlarının (loqistika mərkəzlərinin) yaradılması, əlverişli xidmətlərin göstərilməsi istehlak kooperasiyalarının bu qurumunun (bölməsinin) vəzifələri sayılır. Anbar təsərrüfatı xidmətləri müqavilə əsasında, faktiki xərclər və orta mənfəət normasına uyğun müəyyənləşdirilən tariflər üzrə həyata keçirilir. Belə xidmətlərin göstərilməsi üçün tədarük və satış, emal müəssisələri, topdan və pərakəndə ticarət təşkilatları, sair hüquqi və fiziki şəxslər ilə kontrakt (müqavilə) bağlanır və tərəflər arasında öhdəliklər götürülür. Belə xidmətlərin göstərilməsinə son bir neçə ildə ölkədə yaradılan anbar təsərrüfatı komplekslərini (loqistika mərkəzlərini) cəlb etməyə üstünlük verilə bilər. Anbar təsərrüfatının (loqistika mərkəzlərinin) xidmətlərinin təşkilində, ilk vaxtlar, dövlət tənzimləməsindən istifadə edilə bilər. İtkilərin azaldılmasına görə maddi həvəsləndirmə tətbiq etmək olar;

- ASK istehlak kooperativinin təşkilati-idarəetmə tərkibinin mühüm əhəmiyyətli sahəsindən biri *təchizat xidmətlərinin göstərilməsi* ilə səciyyələndirilir. Bu bölmənin funksiyası kənd təsərrüfatı istehsalçılarını, habelə kooperasiya sisteminə daxil olan və olmayan hüquqi və fiziki şəxslərin öz vəzifələrini yerinə yetirmək (istehsal və xidmətlər göstərmək) üçün tələb olunan istehsal vasitələri (məsələn, kənd təsərrüfatında toxum və əkin materialları, mal-qara və quş yemləri, mineral və üzvi gübrələr, yanacaq və sürtgü materialları, elektrik enerjisi, qaz, bitki və mal-qaranın mühafizəsi üçün kimyəvi preparat və dərmanlar, dezinfeksiya vasitələri, kənd təsərrüfatı texnikası, nəqliyyat vasitələri, informasiya texnologiyaları, ehtiyat hissələri, tikinti materialları və s.) ilə təmin olunması üçün peşəkar xidmətlər göstərilməsilə xarakterizə edilir. Belə xidmətlər tərəflər arasında bağlanmış kontrakt (müqavilə) əsasında, faktiki xərclər və orta mənfəət normasına əsasən müəyyənləşdirilən və razılaşdırılan tariflər (qiymətlər) əsasında həyata keçirilir. Kənd təsərrüfatı istehsalçılarına yanacaq, mineral gübrələr, toxum, kimyəvi preparatlar və s. satışı üzrə güzəştləri təchizat xidməti qurumları vasitəsi ilə daha səmərəli həyata keçirmək olar;

- istehlak kooperativlərinin mühüm əhəmiyyətli fəaliyyət sahələrindən biri *nəqliyyat-daşıma xidmətlərindən* ibarətdir. Bu xidmət sahəsi kooperasiya sistemi üzrə yüksək keyfiyyətli, vaxtı-vaxtında sərnişin və yükdaşımalar həyata keçirir. Onların fəaliyyətinin əsasını tərəflər arasında bağlanmış kontrakt (müqavilə) təşkil edir. Müqavilə üzrə öhdəliklər götürülür, faktiki xərclər və orta mənfəət normasına əsasən müəyyənləşdirilən razılaşdırılmış tariflərdən istifadə olunur. İstehlak kooperativlərinin bu bölməsinin işinin mütəşəkkil təşkili, müasir texnika və texnologiyalar ilə təchiz edilməsi, xidmətlərin dünya təcrübəsinə uyğun təşkili və həyata keçirilməsi hazırkı dövdə hökm sürən özbaşınalıq və hərcmərcliyi aradan qaldırmağa real şərait yarada bilər.

ASK üzrə istehlak kooperativinin fəaliyyət dairəsinin əsası ilkin və təkrar emal sahələrinin yaradılması, onların səmərəli fəaliyyətinin təşkil olunması ilə

səciyyələndirilir. Bu fəaliyyət sahəsi üzrə əməyin təşkilinin üç mühüm iqtiqamətinə daha çox diqqət yönəldilir: ərzaq məhsullarının emalı təşkil olunur; qeyri-ərzaq məhsullarının emalı sahələri yaradılır; kənd təsərrüfatına lazım olan istehsal vasitələrinin istehsalı təşkil olunur və idarə edilir. İstehsal yerlərində orta və kiçik emal sahələrinin (sexlərin) yaradılmasına üstünlük verilir (4, 141).

Ərzaq məhsullarının emalı sahələri aşağıdakı kimi təsnifləşdirilir: dənli və dənli paxlalılar emalı; meyvə-tərəvəz emalı; süd emalı; ət və ət məhsulları istehsalı; çay, mineral sular və spirtli içkilərin istehsalı; çörək və un məmulatları istehsalı; şəkər və qənnadı məmulatlarının istehsalı; unlu və şəkərli məmulatların istehsalı, sair ərzaq məhsullarının istehsalı üzrə orta və kiçik emal müəssisələri yaradılır. Xüsusən də kənd yerlərində belə müəssisələrin yaradılmasına üstünlük verilir. Bu üsulla hər bir ev təsərrüfatlarında çörək və un məmulatları, meyvə və tərəvəz emalı məhsulları, süd məhsullarının istehsalına son qoymaq, hər bir yaşayış məntəqələri üzrə bir neçə ixtisaslaşdırılmış belə emal müəssisələrinin yaradılmasını təşviq etmək və təmin etmək yolu ilə, habelə göstərilən emal sahələrinin məhsullarının hər bir kənd yaşayış məntəqəsində pərakəndə satışını təşkil etmək, ev təsərrüfatlarının izafi süd, meyvə və tərəvəz, digər məhsullarının tədarükü və emalını təşkil etmək istehlak kooperativlərinin əsas məqsədlərindən hesab edilir. Bu yolla hər bir evdə çörək və çörək-bulka, un məmulatlarının bişirilməsi yolu ilə artıq yanacaq, su, elektrik enerjisi, qaz və s. məsrəflərinə qənaət etmək, meşələrin qırılmasının qarşısını almaq, kustar üsulu ilə hazırlanmış keyfiyyətsiz məhsulların aradan çıxarılması və əhalinin sağlamlığına təminat yaradılması mümkün olar. Müvafiq sahələrin xammal və materiallarından səmərəli istifadə üçün əlverişli şərait yaradıla bilər.

Qeyri-ərzaq məhsullarının emalının ixtisaslaşdırılması xammal istehsalı yerləri üzrə aşağıdakı kimi təşkil oluna bilər: pambıq emalı; tütün emalı; yun emalı; şəkər çuğunduru emalı, bitki yağları mənşəli kənd təsərrüfatı məhsullarının (günəbaxan, zeytun, qarğıdalı və s.) ilkin emalı; barama emalı və sair məhsulların ilkin və təkrar emalı üzrə fəaliyyət sahələrinin təşkili və idarə edilməsinə xidmət göstərə bilər. Bu yolla ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarından səmərəli istifadə etmək, kənd təsərrüfatını davamlı və dinamik inkişaf etdirmək, əhalinin yoxsulluğunu azaltmaq, firavan həyat tərzini təmin etmək üçün əlverişli şərait yaratmaq mümkün olar.

ASK üzrə istehlak kooperativlərinin kənd təsərrüfatına lazım olan istehsal vasitələrinin istehsalı sahələrinin inkişaf etdirilmə istiqamətlərinə daxil edilir: sənaye mənşəli mal-qara və quş yemlərinin istehsalı; mineral gübrələrin istehsalı; kənd təsərrüfatı bitkilərinin mühafizəsi üçün kimyəvi preparatların istehsalı; mal-qara və quşların mühafizəsi üçün dərman və ləvazımatların istehsalı; dezinfeksiya vasitələrinin istehsalı; sair xammal və materialların istehsalı; kənd təsərrüfatı texnikası, avadanlıq və ləvazımatların istehsalı. Belə istehsal sahələrinin təşkili və idarə edilməsi, ilk növbədə, müvafiq dövlət proqramları vasitəsi ilə həyata keçirilə bilər, kooperativ üzvlərinin vəsaitləri və emal sahəsi üzrə əldə edilən mənfəətin bir hissəsini bu məqsədlərə nail olmaq üçün istifadə oluna bilər. Belə mürəkkəb məsələlərin həllində ASK sistemində istehlak kooperativlərinin vahid nizam-intizam üzrə həyata keçirtdikləri tədbirlər və fəaliyyət gözlənilən nəticələrin əldə olunmasına əlverişli şərait yarada bilər.

Kooperasiya sistemi vasitəsi ilə sənaye sahələrinin inkişaf etdirilməsi Azərbaycan cəmiyyətində sənayeləşdirmə inkişaf mərhələsi üzrə faktiki geriliyi aradan qaldırmaq, xidmətlərin üstünlük təşkil etdiyi sənayeləşdirmədən sonrakı inkişaf mərhələsinin

təməlinin qoyulması, habelə ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi sənayeləşdirmə siyasətinin uğurla icrasının ən əhəmiyyətli fəaliyyət cəbhəsi sayılır;

- *topdan, pərakəndə ticarət və iaşə xidmətlərinin göstərilməsi*. Belə yanaşma xüsusi kooperativ ticarətini formalaşdıra bilər. Topdansatış ticarət şəbəkəsi istehlak kooperativlərinin tədarük və satış bazaları, təchizat funksiyasını yerinə yetirən qurumların fəaliyyəti ilə səciyyələndirilə bilər. Onlar kənd təsərrüfatı məhsullarının istehsalçıları, emal müəssisələri, habelə kooperativləşməmiş hüquqi və fiziki şəxslər ilə pərakəndə ticarət şəbəkəsi arasında mütəşəkkil, qanunauyğun qarşılıqlı əlaqələrin yaradılmasında, kooperativ üzvlərinə güzəştli qiymətlər üzrə xammal və materiallar (kənd təsərrüfatı məhsulları, istehsal vasitələri) satışının təmin edilməsində əvəzolunmaz rol oynaya bilər. Kooperativ ticarətin xarakterik xüsusiyyəti həm də onunla səciyyələndirilə bilər ki, hər bir kənd yaşayış məntəqələrində pərakəndə ticarətin və ictimai iaşənin təşkili yolu ilə kooperativ üzvlərinə və onların ailələrinə güzəştli qiymətlər ilə, kənd yerlərində kooperativləşməyən əhali təbəqəsinə və şəhər əhalisinə, faktiki bazar qiymətlərinə nisbətən, aşağı qiymətlərlə ərzaq məhsullarının, o cümlədən çörək və sair un məmulatlarının, ərzaq və qeyri-ərzaq məhsullarının satışını təşkil etmək, iaşə xidmətlərinin göstərilməsi mümkün hesab edilir. Ticarətin hər iki mərhələsində (formasında), habelə iaşə xidmətləri göstərilən zaman faktiki xərclərin səviyyəsi və orta mənfəət norması qiymətlərin müəyyənləşdirilməsinin əsası hesab edilə bilər;

- *təmir-tikinti işlərinin aparılması*. Belə xidmət növünün funksiyasına kooperativ üzvlərinə güzəştli qiymətlər (tariflər) üzrə, kooperativə üzv olmayanlara isə ümumi bazar qiymətləri üzrə yaşayış binaları, istehsal və xidmət obyektlərinin tikintisi və təmiri, yolların çəkilməsi və təmiri, elektrik xətlərinin, qaz və su kəmərlərinin çəkilişi və təmiri, su mənbələrinin (bulaq, quyu, kəhrizlərin, suvarma kanallarının və s.), habelə sair sosial obyektlərin salınması, təmizlənməsi, təmiri və istismarı işlərinin həyata keçirilməsi daxil edilir. Bütün xidmətlər faktiki xərclər və orta mənfəət normasına əsasən müəyyən edilən qiymət və tariflər ilə göstərilir;

- *elmi-tədqiqat və layihə-axtarış xidmətləri* vasitəsi ilə kooperasiya sisteminin inkişaf qanunauyğunluqlarının öyrənilməsi və onun nəticələrinə əsasən təşkilati-idarəetmə işlərinin həyata keçirilməsi mümkün olacaqdır. Belə xidmətlərin nəticəsində təlim-tərbiyə, təhsil, elm və təcrübənin vəhdət halında davamlı və dinamik inkişafın təmin olunması gözlənilir;

- *bank, maliyyə və kredit xidmətlərinin* göstərilməsi kooperasiya sisteminin maliyyə imkanlarını möhkəmləndirmək və genişləndirmək məqsədini özündə əks etdirir. Sahibkarlara Kömək Milli Fondu, Kredit İttifaqları Assosiasiyası, "Aqrokredit" QSC sisteminin xidmətlərindən istifadəyə üstünlük vermək şərtilə, mərkəzi və kommersiya banklarının nümayəndəlik və filiallarının istehlak kooperativlərinə üzvlüyə qəbul edilməsi məqsədəuyğun sayıla bilər. Onları ən azından assosiasiya olunmuş (birləşmiş, ortaq) üzv qəbul etmək olar. Bu bankların xidmətləri iki qrupa bölünür: istehsal və istehlak kooperativlərinə ənənəvi bank xidmətləri göstərmək (müəyyən bank hesabları açmaq, debitor və kreditorlarla hesablaşmalar aparmaq, nağd pulunu saxlamaq və s.); kredit paketi vasitəsi ilə istehsal və istehlak kooperativlərinə güzəştli kreditlər vermək. *Müvafiq bank orqanlarının istehlak kooperativinə üzvlüyünə qəbul edildiyi hallarda, kooperativ üzvlərinin, kooperativə üzv olmayan hüquqi və fiziki şəxslərin izafi pul ehtiyatlarını əmanətə qəbul etmək, bu vəsaiti kredit portfelinə daxil etmək, bank*

*vəsaitlərinin kredit formasında deyil, pay formasında kooperativə cəlb etmək və əvəzində mənfəətdən pay almaq metodunu tətbiq etmək üçün əlverişli şərait yaranmış olar;*

- *kadr hazırlığı üzrə xidmətlərin* göstərilməsi həm istehsal kooperativləri və həm də istehlak kooperativlərinin peşəkar kadrlarla təminatı məqsədini daşıyır. Kadr hazırlığı ixtisaslaşdırılmış peşə məktəbləri, orta ixtisas (lisey) və ali təhsil məktəblər vasitəsi ilə hazırlanır, təkmilləşdirmə kurslarının təşkilinə xüsusi diqqət yönəldilir. Gənclərin müxtəlif peşələrə cəlb edilməsi və işçilərin peşə hazırlığının təkmilləşdirilməsi istehsal və istehlak kooperativlərinin göndərişi və kontraktı (müqaviləsi) əsasında həyata keçirilir, müvafiq qaydada ödənişlər aparmaq şərti ilə. Müasir texnika və texnologiyaların mənimsənilməsi və tətbiqi məhz kadr hazırlığı xidmətləri göstərən hüquqi və fiziki şəxslərin funksiyasına daxil edilir və onlar məsuliyyət daşıyırlar;

- *uçot və hesabat işlərinin təşkili və həyata keçirilməsinə*, istehsal kooperativlərində olduğu kimi, xüsusi əhəmiyyət verilir. Bu funksiyanın yerinə yetirilməsi üçün müasir informasiya texnologiyalarından istifadəyə yaşıl işıq yandırılır, ASK üzrə istehlak kooperativinə üzv (ona daxil) olan bütün hüquqi və fiziki şəxslər, müvafiq xidmət sahə, şöbə və bölmələri özlərinin fəaliyyətinə dair, nizamnamə ilə müəyyən edilmiş qaydada, tam və ətraflı məlumatlar hazırlamalı və uçot-hesabat bölməsinə (qurumuna) təqdim etməlidirlər. Uçot-hesabat xidmət bölməsi (qurumu) bazardakı faktiki vəziyyət, qiymət və tariflər barədə informasiya hazırlayır, həm istehsal və həm də istehlak kooperativlərinin üzvlərinin tələbatı ödənilir. Eyni zamanda istehlak kooperativinin ehtiyatları (istehsal vasitələri və əmək ehtiyatları), fəaliyyət nəticələri üzrə (xidmətlərin həcmi, xərcləri, gəlirləri, onların bölgüsü, mənfəət) və idarəetmə üçün zəruri sayılan icmal iqtisadi-statistik məlumatlar hazırlayaraq dövlət orqanlarına (maliyyə, statistika, vergi) təqdim edir, kooperativlərin ittifaqı, ixtisaslaşdırılmış mərkəzi birlik (ittifaq, assosiasiya), elmi-tədqiqat idarələri və sair istifadəçilərin tələbatını ödəyirlər. Bu üsulla da ayrı-ayrı hüquqi və fiziki şəxslərin kommersiya sirrinin qorunmasına dair qanunvericiliyin tələbləri yerinə yetirilmiş olur. İnformasiya təminatı xidməti də haqqı ödənilmək şərti ilə yerinə yetirilə bilər.

- *istehsal və istehlak kooperativlərinin ərazisindəki yol şəbəkəsinin tikintisi və vaxtaşırı təmiri, onların istismarına xidmət göstərmək* və saz halda saxlanmasına yol şəbəkəsinə xidmət göstərən qurum məsuliyyət daşıyır. Bu qurum kooperativlərin sosial fondu hesabına saxlanır və fəaliyyətini davam etdirir, öhdəliklərini yerinə yetirir;

- *mal-qara və quşlara zoobaytar, zootexniki və süni mayalandırma xidmətlərinin göstərilməsi* istehlak kooperativlərinin əsas fəaliyyət sahələrindən hesab edilir. Belə xidmətlər istehsal kooperativləri ilə bağlanmış kontrakt (müqavilə) əsasında həyata keçirilir. Beləliklə, istehlak kooperativləri mal-qara və quşların müasir texnologiya əsasında bəslənməsi, onların sağlamlığının təmin edilməsi və məhsuldarlığının yüksəldilməsində istehsal kooperativlərinin üzvlərinin yaxın həmkarları, köməkçiləri və məsləhətçilərinə çevrilirlər;

- *aqronom, aqrotexniki və toxum təminatı üzrə peşəkar xidmətlərin göstərilməsi*, bitkiçiliyin (əkinçilik və meyvəçiliyin) müasir texnologiyaya uyğun təşkili və həyata keçirilməsində, mineral gübrələrdən və kimyəvi pestisidlərdən istifadə edilməsi, əkin və becərmə işlərinin, habelə məhsul yığımının xüsusiyyətlərini izah etmək, öyrətmək, məsləhətlər vermək istehlak kooperativlərinin əsas vəzifələrindən hesab edilir. Belə xidmətlər də istehsal kooperativləri ilə bağlanmış kontrakt (müqavilə) əsasında həyata keçirilir;

- *texniki (lizinq) xidmət* bölməsinin funksiyası, istehsal kooperativləri ilə əldə edilmiş razılaşma (bağlanmış kontrakt - müqavilə) əsasında, istehsal kooperativlərinin üzvlərinə əkin və becərmə işlərinin, habelə məhsulun sahədən yığılması və daşınması kimi işlərin yerinə yetirilməsində köməklik göstərmək ilə səciyyələndirilir;

- yuxarıda verilmiş şərhlərdən göründüyü kimi, istehlak kooperativlərinin bütün növ xidmətlərinin göstərilməsi tərəflər arasında razılaşma əldə etmək, kontrakt (müqavilə) bağlamaq, öhdəliklər götürmək və onları öz məsuliyyəti altında yerinə yetirmək yolu ilə həyata keçirilir. Odur ki, xüsusi *hüquqi xidmətlər bölməsinin yaradılması zərurətə çevrilir*. Bu bölmənin özü də istehlak kooperativlərinin üzvləri ilə müqavilə şərtləri əsasında fəaliyyət göstərir. Ola bilər ki, belə xidmətlər kooperativlərin sosial fondları hesabına maliyyələşdirilsin;

- istehsal və istehlak kooperativlərinin fəaliyyət göstərdiyi ərazilərdə poçt, rabitə və internet; elektrik, su və qaz təminatı; təhsil və məktəbəqədər tərbiyə ocaqları, səhiyyə və sağlamlıq, sanitar epidimioloji, mehmanxana və iaşə xidmətləri; daşınmaz əmlakla əlaqəli və icarə haqqı xidmətləri, istehsalçı və istehlakçı kooperativlərinin *sair zəruri xidmətlərinin göstərilməsi* üçün mövcud olan müvafiq xidmət sahələrinin istehlak kooperativlərinə üzvlüyünə və ya assosiasiya olunmuş (ortaqlaşdırılmış) üzvü olmasına xüsusi əhəmiyyət verilir.

Kənd təsərrüfatı istehsal kooperativləri və ASK üzrə istehlak kooperativlərinin üzvləri öz aralarındakı qarşılıqlı əlaqələri horizontal (üfüqi) əlaqə prinsipləri əsasında yaradır, vəzifə və öhdəliklərini yerinə yetirirlər. Vahid mütəşəkkil qayda-qanunlara əməl edirlər. Lakin onların bütün belə əlaqələri aşağı pilləli, əlçatan və səmərəli təşkil olunan əlaqələrdən ibarətdir. Qanunauyğunluq, uyğunlaşdırma və ahəngdarlıq prinsiplərinə əsaslanır. Bütün bunlarla, yanaşı bu əlaqələr məhdud sayılır. İstehsal və istehlak kooperativləri regionlararası və beynəlxalq əlaqələrindən təcrid olunmuş hesab edilirlər. Məlumdur ki, müasir dövrdə istehsal, bölgü (mübadilə) və istehlak münasibətləri özünün əvvəlki xarakterik məhdud xüsusiyyətlərinin sərhədlərini aşaraq, regional, sahələrarası və beynəlxalq miqyasda özünə geniş yer tutmuş, möhkəmlənmiş və qanunauyğun hal almışdır. Konkret olaraq hər bir istehsalçı və istehlakçı çoxpilləli münasibətlər sisteminə məruz qalmaq məcburiyyətində olur. Belə münasibətlər sisteminin tərkibini formalaşdıran hər biri kooperasiya sisteminin daxilində müstəqil və səmərəli fəaliyyət göstərir. İxtisaslaşma və inteqrasiya əlaqələri vasitəsilə.

Azərbaycan Respublikası Mülki Məcəllə ilə kooperativ üzvlərinin hüquq və vəzifələri müəyyənləşdirilmişdir. Məcəlləyə uyğun olaraq, kooperativin üzvlərinin aşağıda göstərilən hüquqları vardır: kooperativə daxil olmaq və könüllü qaydada kooperativdən çıxmaq;  kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək; kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq; kooperativin fəaliyyətinin yaxşılaşdırılması, onun orqanlarının və vəzifəli şəxslərinin işində olan nöqsanların aradan qaldırılması barədə təkliflər vermək; mənfəətin bölüşdürülməsində iştirak etmək və digər ödənişləri almaq; kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra əmlakın onun payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq; kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək; Mülki Məcəllə və kooperativin nizamnaməsi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək. Mülki Məcəllənin 109-4.1.2-ci və 109-4.1.7-ci maddələrində nəzərdə tutulan hüquqlar kooperativin ortaq (assosiasiya olunmuş (birləşmiş, ortaq)) üzvlərinə

şamil olunmur. Kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlərin göstərilən hüquqlardan savayı, öz əməyinə görə pul və ya natura ilə əmək haqqı almaq hüququ vardır. *Hesab edirik ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin yuxarıda göstərilən iki maddəsinin təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, kooperativ üzvlərinin kooperativin fəaliyyətində şəxsi əməyinə görə haqq alması onun təşkili prinsiplərinə ziddir. Onlar yalnız mənfəət payı alırlar. Kooperativləşdirmənin nəzəriyyəsinə uyğun olaraq, onun üzvləri kooperativin idarəetmə və nəzarətedici orqanlarında ictimai əsaslarla iştirak edirlər. Dünya ölkələrinin təcrübəsi də bunu bir daha təsdiq edir.*

Aqrar sahə üzrə istehsal və istehlak kooperativlərinin yaradılmasından danışarkən, fikrimizcə, yeni və mürəkkəb təşkilati tədbirlərin həyata keçirilməsi kimi başa düşülməməlidir. Burada kooperativlərə xas olan əlaqələndirmə, qarşılıqlı əlaqələrin yaradılması və onların səmərəli fəaliyyətinin təşkilindən söhbət getməlidir. Odur ki, ilk növbədə kooperativlərin yaradılması məqsədini düzgün müəyyən etmək tələb olunur. Hesab edirik ki, kənd təsərrüfatı üzrə həm istehsal kooperativinin və həm də istehlak kooperativinin ümumi və fərdi məqsədləri vardır və onları bir-birindən fərqləndirmək zərurəti yaranır. Hər iki növ kooperativin ümumi məqsədi ölkə əhalisini və milli iqtisadiyyat sistemini təzə və emal edilmiş ərzaq məhsulları, qeyri-ərzaq məhsulları, o cümlədən kənd təsərrüfatı xammalı ilə lazımi səviyyədə təmin etməklə səciyyələndirilir. Burada kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin etmək, özünütəminat və xarici iqtisadi əlaqələrin səmərəli təşkili qanunauyğun hallar hesab edilir.

Kənd təsərrüfatı istehsal kooperativlərinin qarşısında duran əsas məqsəd kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan iqtisadi subyektlərin sərəncamında olan əsas istehsal vasitələri sayılan üçlükdən: torpaq (kənd təsərrüfatına yararlı torpaq sahələri), əmək (əmək ehtiyatlar) və kapital (mövcud olan maddi-texniki bazadan) səmərəli istifadə etmək, onların sahiblərinin mənafeyini müdafiə etmək, intellektual, mədəni, əxlaqi, mənəvi, maddi dəyərlərini inkişaf etdirmək və firavan həyat tərzini təmin etməkdən ibarətdir. Bu məqsədə uyğun olaraq kooperativ üzvərinin həm öz aralarındakı və həm də kooperativin daxili fəaliyyətdən kənar bütün iqtisadi münasibərlərin: istehsal, bölgü (mübadil) və istehlak münasibətləri sistemində qarşılıqlı əlaqələrin mütəşəkkilliyi və ahəngdarlığını yaratmaq zərurəti yaranır və bəşəriyyətin təkamül mərhələlərində özünü açıq göstərir, qanunauyğun hal kimi təzahür olunur. Bu da müəyyən ümumi qaydaların işlənib-hazırlanması və onlara ciddi əməl olunmasını tələb edir. Belə bir vəzifəni əlbir olmaq, əl-ələ verməklə, yalnız kooperasiya vasitəsilə yerinə yetirmək mümkündür. Əks halda "balıq, durna və xərçək" təmsilindəki vəziyyət yaranır. Elə bu keyfiyyətinə görə də kooperasiya sistemi qarşılıqlı əlaqələrin yaradılması və inteqrasiyanın ən əhəmiyyətli vasitəçisi hesab edilir.

## 2. Kooperasiya sisteminin formalaşması və fəaliyyət mexanizmi

Hüquqi şəxslərin ittifaqları iqtisadi inteqrasiyanın bir formasıdır**.** Kommersiya təşkilatları, təsərrüfat subyektləri özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədi ilə ittifaqlar yaratmaq hüququna malikdirlər. Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə, belə ittifaq Mülki Məcəllə ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir, yaxud da sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada və bu cür cəmiyyətdə iştirak edə bilər. Qeyri-kommersiya təşkilatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi

mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər. İttifaqın iştirakçıları özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayırlar. İttifaqın təsisçilərinin (iştirakçılarının) ona verdikləri əmlak ittifaqın mülkiyyəti hesab edilir. Bu əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir. İttifaq öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır. İttifaqın iştirakçıları onun öhdəlikləri üçün nizamnamədə nəzərdə tutulan miqdarda və qaydada subsidiar məsuliyyət daşıyırlar.

Kooperasiya sistemi dedikdə, müxtəlif xarakterli fəaliyyət sahələrini özündə vahid bir tam kimi birləşdirən idarəetmə proseslərinin məcmusu nəzərdə tutulur. Kooperasiya sistemi, bir qayda olaqaq, əməyin təşkilinin üç mərhələsindən: aşağı, orta və yuxarı pilləli mürəkkəb, eyni zamanda, çox əhəmiyyətli insan münasibətlərini, qarşılıqı əlaqələri səciyyələndirir. Onun ilkin, aşağı pilləsi istehsal və istehlak kooperativlərinin üzvləri arasındakı münasibətlər, qarşılıqlı əlaqələr, öhdəliklərin qəbul edilməsi və yerinə yetirilməsi ilə xarakterizə edilir. Belə münasibətlər horizontal (üfüqi) əlaqələr formasında həyata keçirilir. Orta və yuxarı pilləli münasibətlərin təşkili və həyata keçirilməsi üçün xüsusi qurumların yaradılmasına ehtiyac yaranır. Kooperasiya sistemində orta pilləli münasibətlərin (qarşılıqlı əlaqələrin) səmərəli təşkili və idarə edilməsinin ən əhəmiyyətli forması ərazi kooperativlər birliyinin yaradılması ilə səciyyələndirilir.

***Ərazi (regional) kooperativlər birliyinin*** əsas funksiyası kooperasiya sistemi üzrə regionlararası münasibətlərin təşkili, idarə edilməsi, onların qanunauyğun inkişafını və səmərəliliyini təmin etməklə xarakterizə edilir. Kooperativləşdirmənin ənənəvi prinsiplərinə sadiq qalmaqla, kooperativlər birliyi istehsal və istehlak kooperativlərinin könüllü birləşməsi nəticəsində yaradılır. Onun nümunəvi tərkibi yuxarıdakı III sxemdə verilmişdir.

Regional kooperativlər birliyi hər bir inzibati rayon üzrə yaradılır. Onun funksiyalarına daxil edilir: coğrafi ərazi üzrə istehsal və istehlak kooperativlərinin qarşılıqlı əlaqələrin mütəşəkkilliyi, qanunauyğunluğunu və səmərəliliyini təmin etmək; əməyin elmi təşkili, vahid demokratik idarəetmə üsullarının fəaliyyətinə nail olmaq; istehsal və istehlak kooperativlərinin regionlararası zəruri, texnoloji bölgü (mübadilə) və istehlak münasibətlərinin mütəşəkkil, qanunauyğun təşkili və idarə edilməsini səmərəli həyata keçirmək; beynəlxalq qarşılıqlı əlaqələrin səmərəli təşkili və həyata keçirilməsinə (mərkəzi milli ixtisaslaşdırılmış birlik, ittifaq və ya assosiasiyalar vasitəsi ilə) əlverişli şərait yaratmaq; regionun sosial və iqtisadi inkişafına, təbii və iqtisadi ehtiyatlardan səmərəli istifadəyə nail olmaq məqsədi ilə dövlət proqramlarının fəal icraçısına çevrilmək; əhalinin firavan həyat tərzinə nail olmaq məqsədilə ərzaq təhlükəsizliyi, yoxsulluğun azaldılması, intellektual səviyyəsinin yüksəldilməsinə və s. səy göstərmək.

Regional kooperasiya birliyi öz işini istehsal və istehlak kooperativləri ilə bağlanmış kontrakt (müqavilə) əsasında təşkil edir. Onun təşkilatı quruluşu və fəaliyyət prinsipləri, məramnaməsi, metod və üsulları nizamnamə ilə və Azərbaycan Respublikasının iqtisadi qanunvericilik sistemi ilə tənzimlənir. Regional kooperasiya birliyinə seçilmiş və yaxud təyin edilmiş direktor rəhbərlik edir. Regional kooperasiya birliyinə üzv olan istehsal və istehlak kooperativlərinin səlahiyyətli nümayəndələrinin iclasında onun idarə heyəti və nəzarətedici orqanları qanunvericiliyə uyğun seçilir.

## III. Regional kooperativlər birliyinin nümunəvi sxemi



Qarşısında duran funksiya və vəzifələri yerinə yetirmək üçün regional (ərazi) kooperativlər birliyinin təşkilati-idarəetmə tərkibi belə səciyyələndirilir: idarə heyəti; nəzarətedici orqanları; regional istehsalçılar şəbəkəsi ilə işçi bölmələri; istehlak kooperativləri ilə səmərəli işçi bölmələri (qurumları); ümumi idarəetmə qurumları: iqtisadi təhlil; mühasibat uçotu; uçot-hesabat; hüquqi; kadr hazırlığı; elmi-tədqiqat və texniki tərəqqi; sosial inkişaf; xarici əlaqələr və s. Regional kooperativlər birliyində istehsal kooperativlərin idarəetmə şəbəkəsi və istehlak kooperativlərin idarəetmə şəbəkəsi ilə müvafiq işlər aparan, qarşılıqlı əlaqələri tənzimləyən və istiqamətləndirən qurumlar da yaradılır. Belə qurumların işçiləri, əsasən, istehsal və istehlak kooperativlərinin təklif etdikləri səlahiyyətli nümayəndələrdən ibarət olur. Regional kooperativlər birliyi qarşısında duran vəzifələri keyfiyyətlə və vaxtı-vaxtında yerinə yetirmək məqsədi ilə, müqavilə əsasında, peşəkar mütəxəssisləri, muzdlu işçiləri də işə dəvət etmək hüququna malikdirlər.

Regional kooperativlər birliyinin hüquq və vəzifələrinə daxil edilir: istehsal və istehlak kooperativlərinin fəaliyyəti barədə iqtisadi-statistik məlumatlar toplamaq, icmallaşdırmaq, təhlil etmək, ixtisaslaşdırılmış kooperativlər birliklərinə (ittifaq və assosiasiyalara) təqdim etmək, habelə istifadəçiləri təmin etmək; özünün fəaliyyətinə dair, qanunvericiliklə nəzərdə tutulan məlumatların hazırlanmasını təmin etmək; istehsal və istehlak kooperativlərinin işinin təşkili və vəzifələrinin (öhdəliklərinin) yerinə yetirilməsi üçün zəruri informasiyaların hazırlanması və təmin edilməsi; istehsal və istehlak kooperativlərinin məhsullarının satışı, onların xammal və materialları (istehsal vasitələri) ilə təchiz olunması üzrə regiondan kənar əlaqələrin səmərəli təşkili və təkmilləşdirilməsi; peşəkar kadrların hazırlanması, təkmilləşdirilməsi və onlardan səmərəli istifadə edilməsi, elm və texniki tərəqqinin nailiyyətləri, qabaqcıl təcrübənin istehsal və istehlak kooperativlərinə mənimsədilməsində vasitəçilik funksiyasını yerinə yetirmək; regional dövlət, qanunvericilik və icra orqanlarında, habelə məhkəmə orqanlarında, mərkəzi kooperativlər ittifaqlarında (birlik və assosiasiyalarında) istehsal və istehlak kooperativlərini, onların üzvlərini təmsil etmək və mənafelərini müdafiə etmək; regionun sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasının fəal iştirakçısına çevrilmək, təbii və iqtisadi ehtiyatlardan, əmək ehtiyatlarından səmərəli istifadə tədbirlərinə, ətraf mühitinin və atmosferin çirkləndirilməsinə qarşı mübarizəyə qoşulmaq və s.

Göstərilənlərlə yanaşı, istehsal və istehlak kooperativlərinin tam əhatəli əlaqələri təmin edilməmiş qalır. Makroiqtisadi səviyyəli və beynəlxalq qarşılıqlı əlaqələrin təşkili və həyata keçirilməsi məsələsi özünün mütəşəkkil və qanunauyğun həllini tələb edir. Bu prinsiplərə uyğun gələn vəzifələrin yerinə yetirilməsi ixtisaslaşdırma zərurətini doğurur. ***İxtisaslaşdırılmış mərkəzi idarəetmə qurumlarının*** yaradılmasına ehtiyac duyulur.

Ölkənin kənd təsərrüfatının inkişaf siyasətini müəyyənləşdirən və onun icrasına nəzarət edən dövlət qurumu - Kənd Təsərrüfatı Nazirliyidir. Bu siyasətin icraçıları isə kənd təsərrüfatı məhsullarının istehsalı, bölgüsü (mübadiləsi) və istehlakı ilə birbaşa və ya dolayısı yolla əlaqəli olan təsərrüfat subyektləri, hüquqi və fiziki şəxslərdən ibarətdir. Onların da əsas təbəqəsini kooperasiya sistemi təşkil edir.

# IV. Kooperativlər ittifaqlarının nümunəvi sxemi



Kooperasiya sistemindəki fəaliyyət mərhələləri aşağıdakılardan ibarətdir: kənd təsərrüfatı istehsal kooperativlərinin fəaliyyət dairəsi; istehlak kooperativlərinin fəaliyyət dairəsi; bu kooperativlərin birliyinin fəaliyyət dairəsi; ixtisaslaşdırılmış kooperativlər ittifaqlarının fəaliyyət dairəsi. Onların hər bir mərhələsinin özünəməxsus münasibətləri, əmək sərfi istiqamətləri mövcud olsa da, bir məqsədə xidmət göstərmiş olur: kənd təsərrüfatının dinamik və davamlı inkişafını təmin etmək, sahənin sərəncamında olan ehtiyatlar - kənd təsərrüfatına yararlı torpaq sahələri, əmək ehtiyatları, kapitaldan (maddi-texniki baza, yəni uzun müddətli dövriyyə aktivləri, qısa müddətli dövriyyə aktivləri və nağd pul vəsaitlərindən) səmərəli istifadə etməklə, iqtisadi münasibətlər sisteminin hər üç mərhələsini - istehsal, bölgü (mübadilə) və istehlak münasibətlərinin tarazlaşdırılması, uyğunlaşdırılması və onlar arasında ahəngdarlığın yaradılması ilə səciyyələndirilir.

Kooperasiya sisteminin sonuncu mərhələsində sahəvi prinsip üzrə ixtisaslaşdırma aparmaq, çox mürəkkəb və qarşılıqlı əlaqədə olan münasibətlərin sistemləşdirilməsi və əməyin yüksək səviyyədə elmi əsaslar üzrə təşkili üsulunda istehsal və istehlak kooperativlərinin fəaliyyət dairəsini tamamlamaq və onun səmərəliliyini təmin etmək funksiyaları yerinə yetirilir. Aşağıda verilmiş IV sxemdən göründüyü kimi, Azərbaycan Respublikasının kənd təsərrüfatında kooperasiya sistemini tamamlamaq və onun səmərəli fəaliyyətini təmin etmək üçün, təxminən 24 mərkəzi birlik (ittifaq və assosiasiyaların) yaradılması məqsədəuyğun sayılır.

Bu sahələrin hər biri özünə xas olan istehsal və ya xidmət sahələrinin münasibətlər sisteminin bütün mərhələlərini (istehsal, bölgü - mübadilə, istehlak) qarşılıqlı əlaqələrinin məqsədyönlü təşkili və idarə edilməsi funksiyalarını yerinə yetirirlər. Sahəvi prinsip üzrə ixtisaslaşdırılmış mərkəzi birlik (ittifaq və assosiasiyalar) regional kooperativlər birlikləri vasitəsi ilə istehsal və istehlak kooperativlərinin fəaliyyət dairəsini, qarşılıqlı münasibətlərini tamamlayırlar.

Kooperasiya sisteminin aşağı pillələrində olduğu kimi, ixtisaslaşdırılmış mərkəzi birliklər (ittifaq və assosiasiyalar) azad seçim, könüllülük, üzvlük haqqı, pay ödənişi, özünü idarəetmə, öhdəliklərin yerinə yetirilməsində mülkiyyət və əmlak məsuliyyəti daşımaq və s. prinsiplər, habelə özünün nizamnaməsinə əsasən fəaliyyət göstərmək təcrübəsinə uyğun olaraq özlərinin fəaliyyətini təşkil və idarə edirlər. Vəzifələrini yerinə yetirirlər.

İxtisaslaşdırılmış mərkəzi birliklər (ittifaq və assosiasiyalar) regional kooperativlər birlikləri ilə əldə edilmiş razılaşma və onların təklifi əsasında istehsal və istehlak kooperativlərinin bacarıqlı və səlahiyyətli nümayəndələrini cəlb etmək, habelə müvafiq kooperativlərə üzv olmayan hüquqi və fiziki şəxslərin nümayəndələrini muzdlu əməklə işə qəbul etmək yolu ilə özünün kadr ehtiyatlarını formalaşdırırlar. Mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) funksiyaları, hüquq və vəzifələri özlərinin nizamnamələri ilə müəyyənləşdirirlər.

İxtisaslaşdırılmış birliklərin (ittifaq və assosiasiyaların) vəzifələrinə aşağıdakıları daxil etmək təklif olunur:

*1) səlahiyyətinə aid edilən istehsal və xidmət sahələri üzrə beynəlxalq iqtisadi əlaqələrin mütəşəkkil və qanunauyğun təşkili və həyata keçirilməsi.* Bu qurumlar kənd təsərrüfatı məhsullarının və habelə onların emal edilmiş məhsullarının, idxal və ixracının müasir tələblərə bilavasitə cavab verən qaydalar üzrə icrasına məsuliyyət daşıyır, təşkilati və idarəetmə işlərini həyata keçirirlər. Hazırda milli iqtisadiyyatın bütün sahələri və o cümlədən kənd təsərrüfatı üzrə məhsul və istehsal vasitələrinin idxalı və ixracı ayrı-ayrı

hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir, kortəbii xarakter daşıyır, çoxlu əsaslı və əsassız maneələrlə üzləşilir.

Tədqiqat nəticəsində məlum olur ki, ölkədə idxal və ixrac əməliyyatlarındakı mövcud vəziyyəti təkmilləşdirmək, subyektiv çətinlikləri aradan qaldırmaq, kooperativləşdirməni həyata keçirmək, onun ixtisaslaşdırılmış mərkəzi birliklərinin (ittifaq və assosiasiyalarının) yaradılması, iş prosesinin elmi əsaslar üzrə təşkili və həyata keçirilməsi nəticəsində ölkənin kənd təsərrüfatının beynəlxalq aləmdə, onun istehlak bazarında fəal və səmərəli iştirakını təmin etmək mümkündür.

Araşdırmalardan məlum olduğu kimi, Azərbaycanın aqrar sahəsi üzrə əsas etibarı ilə emal olunmamış gön və aşılanmamış dəri, heyvan və bitki mənşəli piy və yağlar, bütün növ tərəvəz və meyvələr, çayın ixracı onların idxalını xeyli üstələyir, yəni bu məhsul növləri üzrə xarici iqtisadi əlaqələr ixrac yönümlüdür. Emal olunmamış gön və aşılanmamış dəri, heyvan və bitki mənşəli yağlar, habelə heyvan mənşəli digər məhsulların emal sahələrinin zəifliyinin nəticəsidir ki, bu məhsullar xammal halında ixrac olunur. Tərəvəz, meyvə, qoz-fındıq və digər bitkiçilik məhsullarının emalından alınan məhsulların ixracı 2009-2011-ci illərdə onların idxalını üstələmişdisə, sonuncu iki ildə, əksinə, ixrac xeyli azalmış və onların idxalında artım müşahidə edilmişdir. Bu kimi hallar da emal sahələrinin səmərəli fəaliyyət göstərə bilməməsi və ixracın təşkilindəki nöqsanların mövcudluğu ilə xarakterizə edilir. Şəkər, şəkərdən hazırlanan məhsulların ixracında nisbətən mütəşəkkillik mövcud olduğuna görə, baxmayaraq ki, əsas xammal ixracdan əldə edilir, bu məhsulların ixracı onların idxalını 2011-2013-cü illərdə xeyli üstələyə bilmişdir.

Rəsmi statistik məlimatlara əsasən digər növ məhsullar üzrə ixracın həcminin onların idxalından xeyli aşağı olmasının səbəblərinə daxil etmək olar: müvafiq istehsal və emal sahələrinin zəif inkişaf etməsi; ölkə üzrə ixrac əməliyyatlarının təşkili və həyata keçirilməsindəki qeyri-mütəşəkkillik; məhsulların keyfiyyətinin aşağı səviyyədə olması; dünya standartlarına uyğun gəlməyən qablaşdırma və saxlanma şəraitinin mövcudluğu və s. Bütün bu kimi halların kooperativləşdirmə yolu ilə, idxal və ixrac əməliyyatlarının ixtisaslaşdırılmış mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) funksiyasına daxil etmək, gömrük əməliyyatlarının təşkili və həyata keçirilməsini təkmilləşdirmək nəticəsində aradan qaldırılması mümkün hesab edilir.

2) İxtisaslaşmış mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) mühüm funksiyalarından biri müvafiq istehsal və xidmət sahələri üzrə ən müasir elmi nailiyyətlər, texniki tərəqqi, texnologiya və fəaliyyət təcrübələrinin mənimsənilməsi, ölkə iqtisadiyyatının, o cümlədən kooperasiya sisteminin hüquqi və fiziki şəxslərinə, əmək kollektivinə çatdırılması, onların təlimləndirilməsi və bu yenilikləri özlərinin fəaliyyət sahələrində tətbiq etmələrinə nail olmaqla səciyyələndirilir.

3) İxtisaslaşdırılmış mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) funksiyalarından biri müvafiq sahə üzrə tam, mükəmməl və keyfiyyətli informasiyaların hazırlanması ilə səciyyələndirilir. Hər bir sahə üzrə ixtisaslaşmış birlik (ittifaq və assosiasiya) özünün səlahiyyətinə daxil olan istehsal və ya xidmət sahəsi üzrə, təşkilati və idarəetmə ilə əlaqədar olan, bütün iqtisad-statistik məlumatları toplamaq hüququna malik olur. Bu məlumatların əhatə dairəsinə daxil edilir: sahənin mövcud maddi-texniki bazasının - istehsal obyektlərinin (o cümlədən anbarların) sayı və tutumu; istehsal güclərinin mövcud vəziyyəti; texnika və texnologiyaların sayı, tərkibi, gücü; istehsal ehtiyatlarının - torpaq, əmək və pul ehtiyatlarının mövcudluğu və onlardan istifadə

olunması; istehsal edilən və göstərilən xidmətlərin natural həcmi, istehsalçı və istehlakçı qiymətlərinin orta səviyyəsi; qısa müddətli dövriyyə aktivləri; istehsal edilən və mövcud olan əmək cismlərinin istifadəsi, satışı, qalığı, itkiləri və s. barədə ətraflı məlumatlar toplamaq, habelə kooperativ təşkilatların sayı, onların üzvlərinin sayı, fəaliyyət nəticələri, öhdəlikləri, öhdəliklərinin yerinə yetirilmə vəziyyəti, kooperasiya sisteminin təşkili və idarə edilməsi üçün zəruri sayılan bütün iqtisadi-statistik məlumatları toplamaq, onları sistemləşdirmək və icmallaşdırmaq, təhlil etmək, mövcud nöqsanları üzə çıxarmaq, real təkliflər hazırlamaq. İqtisadi-statistik məlumatlar və onların təhlili ilə əlaqədar aparılan işlərin nəticələri kənd təsərrüfatı nazirliyinə, digər icra orqanlarına, elmi-tədqiqat idarələrinə və s. istifadəçilərə, qanunvericiliklə müəyyən edilmiş qaydada təqdim edilir. Məlumdur ki, hal-hazırda yuxarıda sadalanan məlumatların hazırlanmasına lazımi diqqət yönəldilmir, kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəli sahələrin təşkili və idarə edilməsi, demək olar ki, yox dərəcəsindədir, kortəbii fəaliyyət göstərilir.

4) İxtisaslaşdırılmış mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) fəaliyyəti özünəməxsus idarəetmə üsuli-idarəsi hesab edilir. Müvafiq istehsal və xidmət sahələri üzrə fəaliyyət göstərən kooperasiya üzvləri (hüquqi və fiziki) şəxslər özlərinin fəaliyyətini tamamlamaq, qanunauyğun inkişafını təmin etmək, məhsullarını satmaq, istehsal vasitələrini əldə etmək, digər funksiya və vəzifələrini yerinə yetirmək məqsədi ilə ixtisaslaşmış mərkəzi birliklər (ittifaq və assosiasiyalar) ilə vertikal (şaquli) əlaqələr üzrə iş birliyi yaradırlar, qarşılıqlı yardım formasında fəaliyyət göstərirlər.

5) İxtisaslaşdırılmış mərkəzi birliklərin (ittifaq və assosiasiyaların) digər bir funksiyası ilkin kooperasiya təşkilatlarının: istehsal və istehlak kooperativlərinin, regional kooperativlər birliklərinin, habelə onların üzvlərinin (hüquqi və fiziki) şəxslərin mərkəzi icra orqanları, qanunvericilik orqanları, beynəlxalq təşkilatlarında təmsil etmək və onların mənafeyini müdafiə etməklə səciyyələndirilir.

Müvafiq ixtisaslaşdırılmış birliklər (ittifaq və assosiasiyalar) istehsal və istehlak kooperativləri, regional kooperativlər birliklərində olduğu kimi, üzvlərinin təsis yığıncağında yaradılır, müvafiq qaydada qeydiyyatdan keçir, özünün nizamnaməsi ilə müəyyən edilmiş, Azərbaycan Respublikasının iqtisadi qanunvericiliyinə uyğunlaşdırılmış vahid nizam-intizam əsasında fəaliyyət göstərir və özünün funksiyalarını yerinə yeririrlər. Kooperasiya sisteminin bütün mərhələlərində olduğu kimi, ixtisaslaşdırılmış birliklərin (ittifaq və assosiasiyaların) fəaliyyətinin əsas məqsədi ölkənin kənd təsərrüfatı sisteminin dinamik və davamlı inkişafına nail olmaq, ehtiyatlardan səmərəli istifadə etmək, əhalinin ərzaq təhlükəsizliyi və yoxsulluğunun aradan qaldırılması, səmərəli məşğulluğunun təmin edilməsi kimi əlamətlər ilə səciyyələndirilir.

## 3. Nəticə və təkliflər

Göstərilənlərlə yanaşı, ölkədə kooperasiya sisteminin mükəmməl təşkili və uğurlu fəaliyyətinin təmin edilməsi bəzi əlavə məsələlərin həllini də zəruri edir. Bu məsələlərə daxil etmək olar:

- kooperasiya sisteminin təşkili və səmərəli fəaliyyətinin təmin edilməsini müasir mərhələdə ölkənin iqtisadi siyasəti və aqrar siyasətinin mühüm əhəmiyyətli tərkib hissəsi saymaq və onun həllinə xüsusi diqqət yönəltmək məqsədəuyğun hesab edilir;
- ölkənin aqrar-sənaye sistemində kooperativləşdirmə hərəkatının səmərəli təşkili və uğurla həyata keçirilməsi məqsədilə xüsusi Mərkəzi Aqrar Kooperativləşdirmə Komissiyasının və onun regional bölmələrinin yaradılması, onlara müəyyən

səlahiyyətlərin verilməsi, o cümlədən təbliğat və maarifləndirmə vəzifələrinin müəyyənləşdirilməsi əhəmiyyətli sayıla bilər;

- iqtisadi ədəbiyyatlardan dünya ölkələrinin kooperativləşdirmə təcrübəsini öyrənmək mümkün olsa da, belə tanışlıq ölkədə kooperasiya sisteminin məqsədyönlü təşkili və səmərəliliyinə nail olmaq üçün kifayət etmir, həll olunması tələb olunan bir çox məsələlər ortaya çıxır: pay, üzvlük haqqı, mənfəətin bölgüsü, xüsusi təyinatlı fondların yaradılması, onlardan istifadə olunma məqsəd və qaydaları, iqtisadi fəaliyyət nəticələrinin qiymətləndirilməsi, regional kooperativlər birliyi və mərkəzi kooperativlər ittifaqlarının fəaliyyət xüsusiyyətləri, onların yerinə yetirdikləri vəzifələr, maliyyələşdirmə mənbə və qaydaları, qiymətin əmələ gəlməsi, istehsal xərcləri, əməyin ödənişi və s. məsələlərin həlli üsul və yollarını bir neçə ölkənin təcrübəsində öyrənmək olduqca əhəmiyyətli sayılır. Odur ki, Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə aidiyyəti qurumların nümayəndələri və elmi tədqiqat işçilərindən ibarət işçi qrupunun yaradılması, kooperasiya sistemi geniş fəaliyyət göstərən bir neçə ölkələrin iş təcrübəsinin öyrənilməsinin təşkil edilməsi və öyrənilən təcrübədən Azərbaycanda kooperasiyanın təşkilində istifadə olunmasını olduqca əhəmiyyətli saymaq məqsədəuyğun hesab edilir;

- tədqiqat nəticəsində müəyyən edilmiş problemlərin həllində, məsələn, torpaq ehtiyatlarının iqtisadi-statistik qiymətləndirilməsi (dəyərinin hesablanması), kənd təsərrüfatının müasir tələblər baxımından yeni təsnifatının, məhsul növlərinin təsnifatının, istehsal xərclərinin təsnifatının, kənd təsərrüfatı üzrə iqtisadi hesabların göstəricilərinin: dəyər, aralıq istehlak xərcləri, yeni yaradılmış (əlavə) dəyərin hesablanması, əlavə dəyərin bölgüsü və mənfəətin hesablanmasına dair müasir yanaşmaların beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə qarşılıqlı əlaqələrin qurulması, onlar ilə işgüzar əməkdaşlıq əlaqələrin yaratmağın faydalı sayılması, xüsusi əhəmiyyət verilməsi və təşkil olunmalsı çox əhəmiyyətli ola bilər;

- kooperasiyanın təşkili və səmərəli fəaliyyətinin ölkənin aqrar siyasətinin tərkib hissəsi elan edildikdən sonra, istehsal və istehlak kooperativlərinin bu siyasətin bilavasitə icraçıları sayıldığına görə, dövlətin aqrar iqtisadiyyat üzrə həyata keçirdiyi tənzimləmə siyasətinin bütün rıçaqlarını: tətbiq olunan güzəştləri, yardımları, vergi ödənişindən azad edilmə və s. yalnız kooperasiya sistemi vasitəsi ilə həyata keçirmək məqsədəuyğun sayıla bilər. Bu üsulla hüquqi və fiziki şəxslərin müvafiq kooperativlərə üzv olunmasını təşviq etmək, maraqlandırmaq mümkün olar. Kooperativləşmək istəməyən hüquqi şəxslər və təsərrüfat qurumları maliyyə imkanları genişdirsə, dövlətin yardımlarına (güzəştlərinə, azadetmələrinə) ehtiyacı da olmayacaq. Kooperasiya sistemində özünəməxsus tənzimləmə üsullarının tətbiqi məqsədəuyğun sayıla bilər: məsələn, istehsal kooperativlərinə əvvəlki ilə nisbətən əkin sahələri, meyvə bağları və mal-qaranın məhsuldarlığının artımına görə əlavə ödənişlərin tətbiqi mümkündür; yeni kooperativlərin yaradılması zamanı, bəzi ölkələrdə olduğu kimi, müxtəlif təyinatlı xərclərin dövlət tərəfindən ödənilməsi təmin edilə bilər; istehlak kooperativləri üzrə göstərilən xidmətlərin keyfiyyət əlamətlərinin yaxşılaşdırılmasına və səmərəlilik əldə edilməsinə görə əlavə ödənişlər tətbiq oluna bilər, necə ki, məsələn, istehsal və tədarük edilən məhsulların itkilərinin azaldılmasına, suvarma xidmətləri zamanı ikinci və növbəti suvarmanın təmin olunmasına, kreditlərin vaxtından əvvəl qaytarılmasına, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması və s. görə əlavə ödəniş, güzəştlər tətbiq etmək

mümkündür. Tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracına görə maddi maraqlandırma siyasəti yeritmək məqsədəuyğun sayıla bilər;

- ölkədə kooperasiya sisteminin səmərəli fəaliyyətinin təşkili və təmin edilməsi məqsədi ilə ilkin kooperasiya təşkilatlarına - istehsal və istehlak kooperativlərinə, habelə regional kooperativlər birliyi və ixtisaslaşdırılmış mərkəzi kooperativ birlikləri (ittifaqları, assosiasiyalarına) istehsal vasitələrinin: toxum və əkin materialları, yanacaq və sürtkü materialları, mineral və üzvi gübrələr, kimyəvi preparatlar, dezinfeksiya vasitələri, kənd təsərrüfat texnikası, cavan və məhsuldar mal-qara və quşlar, ehtiyat hissələri və s. xammal və materialların topdansatış sisteminin yaradılması özünün zəruriliyini biruzə verir;

- göstərilən məsələ və problemlərin həlli bütövlükdə ölkədə kooperativləşdirmənin uğurla təşkili və həyata keçirilməsi, onların maliyyə imkanlarının genişləndirilməsi və inkişaf etdirilməsi, təbii, əmək və iqtisadi ehtiyatlarından səmərəli istifadə olunması, məhsuldar və faydalı fəaliyyət nəticələrinin əldə olunması üçün əlverişli iqtisadi və sosial mühit yaratmağa əhəmiyyətli dərəcədə xidmət göstərə bilər;

- kooperasiya sisteminin iqtisadi fəaliyyət mexanizmi və sosial inkişaf xüsusiyyətlərinin nəzəri və təcrübi aspektlərinin tədqiqi az əhəmiyyət kəsb etməyən məsələlərdən sayılır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. “Azərbaycan 2020: gələcəyə baxiş” inkişaf konsepsiyası;
2. Sahibkarlıq fəaliyyəti (sənədlər toplusu), “Hüquq ədəbiyyatı” nəşriyyatı, Bakı, 2003-cü il;
3. Xacə Nəsirəddin Tusi, Əxlaqi-Nasiri, Bakı, “Elm”, 1989-cu il, 256 s.;
4. Kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsində kooperasiya münasibətlərinin rolunun artırılması, AzETKTİvəTİ-nin hesabatı, Bakı, 2014, 192 s.;
5. İsrafilov H. A., Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişaf problemləri və perspektivləri, iqtisad elmləri doktorluq dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2014-cü il;
6. Zeynallı Əlisa, Azərbaycan kənd təsərrüftı coğrafiyasının müasir problemləri, monoqrafiya, Bakı, “Elm”, 2005-ci il, 392 s.;
7. Чаянов А. В., Основные идеи и формы организации сельскохозяйственной кооперации, Москва, Наука, 1991 год, 456 с.;
8. Илимский-Кутузов Д. И., Очерки по теории кооперации, Москва, 1925 год, 136 с.;
9. Агеев А. М., Кооперация агробизнеса и хозяйства населения // Экономика сельского хозяйства Росии, 2006, №9;
10. Пажитнов К. А., История кооперативной мысли, Петроград, 1918 год;
11. Кулиев Т. А., Крестьянская потребительская кооперация: теория и основные направления, Баку, 2014 год;
12. Зейналова С. М., Немецкие колонии в Азербайджане (1819-1941 гг.) , Баку, Араз, 2002, 222 с.;
13. Wikipedia internet səhifəsinin materialları.

# Функции и принципы действия потребительских кооперативов системы аграрно-промышленного комплекса, региональных и специализированные центральных кооперативных объединений

Зейналлы Алиса Тавакkуль оглы, д. ф. э.,
АзНИИЭиОСХ, заведующий отделом;
Т. К. Горчиева
ведущий научный сотрудник.

**Резюме**

В статье обращается внимание на определение функции и задачи потребительской кооперации отраслей аграрно-промышленного комплекса, описывается механизм формирования и действия системы кооперации.

**Ключевые слова**: кооперация, интеграция, производственные кооперативы, потребительские кооперативы, систем кооперации, член кооперации, ассоциативный член кооперации.

# Functions and principles of action of consumer co-operative societies of system of an agrarian & industrial complex, regional and specialised the central co-operative associations

Zeynalli Alisa Tavakkul, Dr.Ph.,
AzSRIE&OA, head of the department;
T.K.Qorchiyeva
leading researcher.

**Resume**

In this article the attention is addressed to definition of the function and problems of consumer co-operative society of the branches of agrarian-industrial complex, the mechanism of formation and action of the cooperation system is described.

**Keywords**: cooperation, integration, production co-operatives, consumer co-operative societies, cooperation systems, a member of cooperation, an associative member of cooperation.